
Mina RƏŞİD
BALACA
GÜNƏŞ

# MİNA RƏŞİD

# BALACA GÜNƏŞ

«Vektor» Beynəlxalq Nəşrlər Evi
Bakı/Azərbaycan - 2019

*Ön sözün müəllifi:*
Prof. Dr. **Elçin İSGƏNDƏRZADƏ**

*Redaktor:*
**Sevinc NURUQIZI**

*Texniki redaktor:*
**Şükufə ƏHMƏDLİ**

Mina Rəşid "Balaca Günəş"
«Vektor» Beynəlxalq Nəşrlər evi,
Bakı, 2019. 136 səh.

*Kitabın təmənnasız nəşrinə görə şair, professor Elçin İsgəndərzadəyə dərin təşəkkürümü bildirirəm.*

©«VEKTOR» BEYNƏLXALQ ELMLƏR AKADEMİYASI, 2019



## BALALARIMIZA QARABAĞ NƏĞMƏLƏRİ

Mən Mina Rəşidi Qarabağın Ağdam rayonunun Qiyaslı kəndində doğulmuş bir qarabağlı kimi 20 ilə yaxındır ki, tanıyıram. Mina Rəşid təqribən 20 ilə yaxındır ki, mənim gözümdə gündən-günə Qarabağ sevgisinin etalonuna çevrilərək Qarabağın atributlarından – simvollarından birinə çevrilib.

Mən Mina Rəşidi 20 ilə yaxındır ki, Qarabağ həsrətli, Qarabağ göynərtili, Qarabağ hayqırtılı bir Vətəndaş şair kimi tanıyıram. Mina Rəşid poeziyası təxminən 20 ilə yaxındır ki, mənim gözümdə bu mövzunun barometrinə çevrilərək Qarabağ məşəqqətlərinin və həqiqətlərinin ən gözəl salnaməsinə çevrilib.

Mən Mina Rəşidi 20 ilə yaxındır ki, qələmini avtomata çevirərək Qarabağ hayqırtısı ilə ürək dağlayan yazılar yazan alovlu Vətənpərvər jurnalist kimi tanıyıram. Mina Rəşidin bu səpkili yazıları təxminən 20 ilə yaxındır ki, mənə və bütün oxucularına Qarabağsız yaşaya bilmənin mümkünsüzlüyünü və dolayısı ilə Qarabəğa

qovuşacağımızın labüdlüyünü şüurlarımıza təlqin edir.

Zənnimcə Minanın da çox gözəl şeirlər və yazılar həsr etdiyi Qəhrəmanlarımızın döyüş cəbhəsində etdiklərini Mina kağız üzərində öz qələmi ilə edir. Və mənə görə Qarabağ müharibəsinin ən şərəfli Qəhrəmanlarından biri də Mina Rəşiddir.

Mən elə düşünürəm ki, istəkli balalarımıza ünvanlanmış bu kitabın arayaərsəyə gəlməsinin ən əsas səbəbi də məhz Minanın BÖYÜK VƏTƏNDAŞLIĞI, BÖYÜK VƏTƏNPƏRVƏRLİYİ VƏ FENOMENAL QARABAĞ SEVGİSİDİR.

Bəli, bu gün biz balalarımıza Minanın yazdığı bu şeirləri və bu səpkili şeirləri oxumalıyıq və oxutmalıyıq!

Bəli, bu gün biz balalarımıza Minanın yazdığı bu şeirləri və bu səpkili şeirləri öyrətməliyik!

Belə olsa Qarabağ zəfərinə qovuşacağımız gün uzaqda olmayacaq !!!

***Prof. Dr. Elçin İSGƏNDƏRZADƏ***





## SƏN MƏNİM VƏTƏNİMSƏN
**(I hissə)**

## MƏNİM DOĞMA VƏTƏNİM

Azərbaycan adlanır
Mənim doğma vətənim.
Azərbaycan dilidir
Mehriban ana dilim.

Vətənimin paytaxtı
Yaraşıqlı Bakıdır.
Möhtəşəm Qız qalası
Bakının baş tacıdır.

Bayrağım üçrənglidir
Qırmızı, yaşıl, mavi.
Mənim nağıllarımda
"Cırtdan" aldadır "Div"i.

Dinim İslam dinidir
Vətənim Odlar yurdu.
Torpağımı qoruyur
Böyük, güclü bir ordu.





## ANA DİLİM

Ana dilim bal kimi
Danışmaqdan doymuram.
Mən onu necə dilin
İçində qoruyuram.

Anamın laylasıyla
Mən boy atıb böyüdüm.
Onun şirin diliylə
Fərəhlənib öyündüm.

Çoxlu nağıl söyləyib
Nənəm bu dildə mənə.
Əlifbanı öyrəndim
Mən sevinə-sevinə.

Çox sevirəm yurdumun
Bayrağını, gerbini.
Mən sevirəm anamı
Həm də ana dilimi.

## CƏNGİ HAVASINDAYAM

Bəsdir daha gözlədik
Qalx ayağa, soydaşım!
Qoy qalmasın düşməndə
Tək bircə qara daşım.

Üçrəngli bayrağımda
Qanımın al rəngi var.
Himnimizi söyləyib
Nərə çəkər oğullar.

Cəngi havasındayam
Türkün ruhu oyanar.
Bu qüdrətli ordumla
Qarşımda nə dayanar?!





## AZƏRBAYCAN ƏSGƏRİ

*Ordumuzun aprel qələbəsinə həsr edilib*

Uşaqlar bir ağızdan
Himn oxuyurlar, bir bax.
Əldə bayraq, dildə "can"
Hamı deyir: "Qarabağ!"

Qurtulacaq düşməndən
Can yurdum – Qarabağım!
Ürəyimin başında
Dalğalanır bayrağım.

Hər kəs bir Vətən olub
Əsgər kimi dayanıb.
Şəhid babamın ruhu
İndi nura boyanıb.

Bütün dünya eşitsin
Bu yurd türkün məskəni.
Haqq uğrunda savaşır
Azərbaycan əsgəri!

## VƏTƏN

Vətən nədir, anacan?
- Ananın qucağıdır.
Atanın yurd-yuvası,
Babanın ocağıdır.

Qarabağda doğuldun,
Sənin yurdun oramı?
- Elədir, mənim balam,
Təzələdin yaramı...





## BAYRAĞIM

Səni enməyə qoymaz
Doğma Yurdum - dayağım.
Harda qalib oluruq
Dalğalanır bayrağım!

Sənə zirvə yaraşır
İgid elimdəm güc al!
Azərbaycan bayrağı,
Başım üstündə ucal!

Səni qorumalıyıq
Doğma adımız kimi.
Səni unutmarıq biz
Vətən andımız kimi!

## ŞUŞA

Min bir dərdin dərmanı
Şirin, buz bulaqları.
Şuşa dağın başında
Dolanbacdı yolları.

Qarabağ şikəstəsi,
Xarı bülbülün eli.
Natəvanın qələmi,
Vaqifin şirin dili.

Qalıb düşmən əlində
Neyləsin əsirlikdə?!
Başına bəla olub
Şuşamın gözəlliyi.

Üz tutaq Qarabağa -
Baba, nənə, tələsin!
Şuşasız həsrət sizi
Qoy daha öldürməsin...





## AĞACLAR DA KÖVRƏLİR

Hansı meyvəni görsə,
Yenə başlayır sözə:
"Bizim həyətdə vardı..."
Anam qarabağlıdı...

...Gözləməkdən yorulub
Tükənir səbirləri
Ağaclar da kövrəlir,
Anam deyir: "O vaxtdan
dağlar, bağlar, bulaqlar
Yolumuzu gözləyir..."

## SƏN MƏNİM VƏTƏNİMSƏN

Sən babamın, nənəmin,
Anamın Vətənisən.
Orda doğulmasam da
Sən mənim Vətənimsən.

Nənəm yenə danışır
"Can, Qarabağ...", - söyləyir.
Hərdən də, köks ötürür,
Adına gülümsəyir...

Deyir: "Düşmən əlində,
Qaldı evim-eşiyim..."
Deyirəm: "Qoy böyüyüm,
Mən çəkəcəm, nənəcan
Qarabağın keşiyin!"





## NOVRUZ

Bayramların içində
Biri var, o ayrıdır.
Biz onu çox sevirik
O, Novruz bayramıdır.

Bəzəkli yumurtalar
Döyüşə hazır olar.
Tonqalların üstündən
Ən qoçaqlar atılar.

Masanın üstündəki
Səmənidir, ən uca.
Şəkərbura, paxlava,
Şirni, noğul bolluca.

Qızlar qapı yanında
Qulaqlarını tutar.
Qonşular qoz-fındığı
Papaqlara doldurar.

...Nənəm Qarabağdakı
Novruzundan danışar.
Susar bütün uşaqlar
Qəlbimizdə bir həsrət
Tonqal kimi alışar...





## XOCALI

Xocalı qan ağıayır,
Ürəyimi dağlayır.
Qərənfil də bizimtək
Dərd çəkir, yas saxlayır.

Amma biz ağlamaqla
Bu dərd sağalan deyil.
Xocalını almasaq
Bir də doğulan deyil.

## AĞDAM

Ağdam - sehrli bir səs,
Ağdam - muğam məktəbi.
Burda doğulanların
Başqa cür olur təbi.

Qədirin, Səxavətin,
O Arifin səsidir.
Ağdam Şahmarın sözü,
Familin nəfəsidir.

Xudu Məmmədov ondan
Aldı könül odunu.
Elmi, ədəbi ilə
Hey ucaltdı adını.

Şahmalının şux səsi
Yenə Ağdamı öyür.
O şəhid xanəndənin
Səsi də "Vətən" deyir!





Səs qalası qalarmı
Əlində yağıların?!
Var olsun Allahverdi,
Şirintək oğulların!

## MÜBARİZ

*Milli qəhrəman Mübariz İbrahimova*

Bilirsinizmi
Kimdi qəhrəman?
Savaşda verməz
Düşmənə aman.

Özünü atar
Odun içinə.
Qırar düşməni
Tək öz gücünə.

Tariximizdə
O şanlı bir iz.
Adı Mübariz,
Özü Mübariz!





## TƏBRİZ

*Milli qəhrəman Təbriz Xəlilbəyliyə*

Qarabağ, nə doğmasan,
Necə əzizsən, Vətən!
Sənə qurban olarmı
Söylə, hər yoldan ötən?

Təbriz belə düşünüb
Qarabağa yol aldı.
Atasının qəlbində
Qürurdan dağ ucaldı.

Ata bir qəhrəmandı.
Bir igid oldu oğul.
Fərəhdən Xəlil Rza
Dedi: "Təbrizim, sağ ol!"

Vətən qoynuna aldı
Təbrizini yel kimi.
Adı əbədi qaldı
Qəhrəman oğul kimi.

## ÇİNGİZ

*Milli qəhrəman Çingiz Mustafayev*

O bir jurnalist,
Həkimdi həm də.
Vətən çağırdı
Durmadı gendə.

Bir əldə silah,
Birində qələm.
Dedi: "Qarabağ,
Uğrunda ölləm"...

-Xocalım mənim,
Bu dəhşət nədir?!
Dərdi dünyaya
Bəyan elədi.

Çingiz mərd oğul,
O bir qəhrəman.
Vətən unutmaz
Onu heç zaman!





## TÜRK BAYRAĞI

Şəhidinin qanından
Doğuldun, türk bayrağı!
Al-qırmızı donunla
Var oldun, türk bayrağı!

Üstündə ay- ulduzun
Ucalığın rəmzidir.
Hər yan türkün bayrağı
Bir bayraq dənizidir.

Can, Türkiyəm, bilsəydin
Necə heyranam sənə...
Bürünüb bayrağına
Ucaldım aya, günə...

Sən adımsan, andımsan
Türkümsən, türk bayrağı!
Millətlərin içində
Görkümsən, türk bayrağı!

## TÜRK ƏSGƏRİ

Sən bir türk oğlu,
Türkün əsgəri.
Yurda çevirdin
Quru səngəri.

Adın Vətənlə
Çəkilir qoşa.
Ay igid əsgər,
Səni min yaşa!





## QİYASLI

A Qiyaslı, Qiyaslı,
Bağ-bağçası gilaslı.
Narı mələs, gülöyşə
Kol dibində bənövşə.

Nəlbəki gül, sarı gül,
Həyətin tən yarı gül.
Nəğmə deyən quşdumu?
Quşlar bağdan uçdumu?

Qarqar çayı çağladı,
Bulud dolub ağladı.
Nankor oldu qonşumuz
Qəlbimizi dağladı.

## QARABAĞ

Hər il qardaşımla mən
Gedirəm Qarabağa.
Gəzirəm çölü-düzü,
Çıxıram uca dağa.

Orda dostlarım məni
Gözləyirlər, bilirəm.
Onlarla oynayıram,
Doyunca əylənirəm.

Qarabağı sevirəm
O anadı, Vətəndi.
Ondan ayrılmaq mənə
Dostlar, yaman çətindi.





## ƏSGƏRƏ MƏKTUB

Dilimizin əzbəri
Əsgər, ucadır adın!
Müqəddəsdir, təmizdir
Sənin Vətənə andın.

Sən Vətəni, milləti,
Bayrağı qoruyursan.
Üstündə boy atdığım
Torpağı qoruyursan.

Mən də böyüyən kimi
Bir əsgər olacağam.
Yağışda, lap şaxtada
Səngərdə qalacağam.

Biz əsgər oluruq ki,
Analar ağlamasın.
Üçrəngli bayrağımız
Vüqarla dalğalansın!

## BAKI

Uca-uca binalar
Ulduzlara qol açır.
Hər yan işıqlı, nurlu
Arzulara yol açır.

Dənizin göz oxşayır
Ətir saçır bağların.
Qoynunda xoşbəxt olur
Qızların, oğulların.





## BÖYÜKLƏR BİZƏ BAXSIN

Axı nəyə gərəkdi
Bu tanklar, bu ordular?
Bizimtək uşaqları
Xocalıda qırdılar.

A dünya uşaqları,
Sarı, qara, ağbəniz...
Sülh nəğməsi oxuyaq
Aya çatsın səsimiz!

Böyüklər bizə baxsın
Güldən çəkək yolları.
Əl-ələ verib gedək
Susduraq silahları!...

## BİZİM XALÇAMIZ

Güllü naxışlı,
Yaşıllı, allı.
Xalça toxudu
Nənəm Sayalı.

Bizim xalçamız
Uçacaq indi.
İçindən atlar
Qaçacaq indi.

Burda dəvələr
Düzülüb yola.
Zınqırovlarla
Səs sala-sala.

Bizim xalçamız
Necə əzizdir.
Tariximizdir,
Keçmişimizdir.





Uçar göylərə
Səmada süzər.
Bizim xalçamız
Dünyanı gəzər...

## QIZ QALASI

Başı göylərə çatan
Bir qalam var, möcüzə...
Bu sehirli abidə
Nələr söyləyir bizə?!

Elə vüqarla durub
Əzəmət simvoludu.
Bir sənət incisidi
İçi sirlə doludu.

Gözəllikdə tayı yox
Nağıldı, əfsanədi...
Adı Qız qalasıdı
O, Bakının rəmzidi...





## ŞƏKİ

Doğma, sevimli Şəki,
Qədim, gözəl şəhərim.
Şəhərlərin içində
İlkin, əzəl şəhərim.

Çinarları baş-başa
Xan sarayı tamaşa.
Təbiəti möcüzə,
Dağları qoşa-qoşa.

Xırda daşlar düzülmüş
Qəşəng küçələri var.
Şəkidə hər insanın
Üzündə gülüş olar.

Sanki bir doğmalıq var
Havasında, suyunda.
Şəki halvası kimi
Şirinlik var soyunda.

Bağında barı gözəl,
Dağlarında dumanı.
Qoy quşlar, çərpələnglər
Bəzəsin göy səmanı...





## GƏNCƏ

Dillər əzbəri Gəncə,
Şəhərlərin gözüsən.
Tarixin çox qədimdi,
Nizaminin sözüsən.

Müsibətlər görmüsən
Uçub divarın-daşın.
Zəlzələ, müharibə...
Nələr çəkməyib başın.

Gəncə darvazasının
Adı bir tarix oldu.
Qala divarlarınla
Qorumusan bu yurdu.

Bu gün elə gözəlsən
Əksin düşür Göygölə.
Səs-sorağın yayılıb
Uzaq-uzaq ellərə.

## BƏRDƏ

Sən yurdumun çox qədim
Şəhərisən, a Bərdə.
Sən keçmişim, bu günüm,
Səhərimsəm, a Bərdə!

Qədim xalçalarınla
Dünyaya səs salmısan.
İgidliyin məkanı,
Nüşabə qalasısan.

Quşların nəğmə deyir
Qoca tut ağacında.
Tariximin izi var
Sənin hər bucağında.

Qədim incilərinlə
Hər eldə hörmətin var.
Yurdumun paytaxtıtək
Tarixdə şöhrətin var.





## NƏNƏM SEVMİR ŞƏHƏRİ

Yazgül yaşıl bağ çəkib
Gözünü ona dikir.
Doğma yurd həsrətilə
Nənəsi xiffət çəkir.

Kəndimə-kəsəyimə
Deyir, görən nə oldu?
Yenə xəyala daldı
Yenə gözləri doldu...

Hara baxsan daş-divar
Bircə ağac, gül yoxdu.
Nənəm sevmir şəhəri
Nənəmin dərdi çoxdu.

## AYAQQABI ADASI
**(2-ci hissə)**





## HÖRÜMÇƏK ADAM

Hörümçəyə bənzəyir
Sakitcə qalxır, durur.
Hörümçək adam kimi
Həmzə evdə tor qurur.

O qədər seyr edib ki,
O, "Hörümçək adam"ı
Evdə oyun çıxarır
Dəyişiblər adını.

"Dünyanı qurtarıram
Hörümçək adam kimi" -
Deyir, evdə qoy hər kəs
Qəhrəman bilsin məni.

## NURAY

Gah gül çəkir, gah ağac,
Gah günəş, gah da ki, ay.
Şəkil çəkməyi yaman
Çox sevir bizim Nuray.

Divarda yer qalmayıb
Payızdı, qışdı, yazdı...
Nə vaxt baxsan, əlində
Karandaşı hazırdı.

Bax, yenə nəsə çəkir
Bu ki, bir dan ulduzu!
Yəqin rəssam olacaq
Mənim balaca quzum.





## ŞAM VƏ NAĞIL

İşıq sönəndə
Şam yandırırıq.
Şam işığında
Biz çalışırıq.

Anam oxuyur
Şam rəqs eləyir.
Mənimtək şam da
Nağıl dinləyir.

## BALERİNA KARANDAŞ

Karandaşım incədi
Balerinalar kimi.
Mən ona bir don biçdim
Dərzi analar kimi.

İstədim karandaşım
Oynasın onun kimi.
Amma o, durub baxdı
Sevindirmədi məni.

"Hər kəsin öz işi var"-
Dedi bacım, qardaşım.
Balerina olmağı
İstəmir karandaşın!





## TƏNDİR ÇÖRƏYİ

Xəmir yoğurdu,
Kündələr tutdu.
Nənəm onları
Təndirə yapdı.

Çörəkdən əvvəl
Qoxusu gəldi.
Sonra çörəklər
Bir-bir düzüldü.

Təndir çörəyi
Nə ləzzətlidir.
Nənəmin əli
Bərəkətlidir.

## YAĞAN QAR OLMAZ HƏDƏR

Günəşi görən kimi
Qar geriyə çəkildi.
Damlarda suya donüb
Şəlalətək töküldü.

Qartopular əridi,
Qar adamı büzüşdü.
Üst-başım su içində
Topum palçığa düşdü.

Qarın ömrü nə qısa
Oynadıq, doyduq yetər.
Nənəm deyir: “Qış gedər
Yağan qar olmaz hədər”.





## AYAQQABI ADASI

Burda çoxlu çeşid var
Götürürdüm, baxırdım.
Zəhraya mağazadan
Ayaqqabı alırdım.

Zəhra dedi: "Ay aman,
Biz gəlmişik uzaya!"
Ayaqqabı adası
Söylədi mağazaya.

## ÇİÇƏYİN ÇƏTİRİ

Yağış yağır səhərdən,
Hələ külək də əsir.
Əlindəki çətirlə
Çiçək yaman tələsir.

Məktəb harada qaldı?
Buludlara uçur o.
Gedə bilmir, çətirin
Arxasınca qaçır o.





## ÜMİDİN BİR YAŞI VAR

Ümidin bir yaşı var
Evdə nə var dağıdır.
Əlindən bir şey alsan
Tez qışqırıb-bağırır.

Ayıcığın qolundan
Tutub yerlə sürüyür.
Qaçır o baş, bu başa
Tappır-tuppur yüyürür.

Atasını yedirdir,
"Can", - deyir anasına.
Yorulanda tez gəlir
Xalanın qucusuna.

## GÖYQURŞAĞI

Göyqurşağı kimidi
Bizim balaca Nərmin.
Gör bir neçə rəngi var
Əynindəki hörmənin?





## MƏNİM ADIM İRADƏ

*Sevinc Nuruqızının nəvəsinə*

Mənim adım İradə
Çox ağıllı qızam mən.
Nənəmin ilk nəvəsi
Ətirli bir yazam mən.

Bapbalaca olsam da
Anam dərs deyir mənə.
Mən "A" hərfi deyəndə
"Afərin!", - deyir sənə.

Atamın bir dənəsi
Parlaq günəşiyəm mən.
Babam gəlib görəcək
Daha böyümüşəm mən.

## MƏKTUB

Anasına həmişə
Minayə məktub yazır.
- Ana, mənə nağıl de,
Ana, məni yatızdır...

Qardaşından küsəndə
Sözlərindən od saçır.
Atasına söz demir
Məktubu verib, qaçır.

Məktublarla unudur
Ağlayıb-sızlamağı.
Atasına xoş gəlir
Onun məktub yazmağı.





## MƏKTƏB MƏNSİZ DARIXIR

Xəstələndi, iki gün
Süsən dərsə getmədi.
Darıxdı məktəb üçün
Tez sağalmaq istədi.

"Məktəb mənsiz darıxır",
Söylədi anasına.
Məktəbin şəklin çəkib
Tez qoydu çantasına.

# NƏĞMƏ SÖYLƏYİR KÜLƏK

Könül yuyub paltarı
Həyatimizə sərib.
Köynəklər rəqs eləyir
Havada qərib-qərib.

Bildim, Könül küləklə
Nədən çevrildi dosta...
Nəğmə söyləyir külək
Hərdənbir segah üstə...





**"GÖYƏRÇİN"** jurnalında ilk dəfə yazılarımı görəndə

Qəlbimdəki sevincdən,
Könlüm quştək çırpınır.
Bu gün uçmağa təkcə
Qanadlarım çatışmır.

Əllərimdə "Göyərçin",
Gözlərimdə gülüş var.
Elə bir andayam ki,
Rəqs eləyir damcılar.

Yağış yağır, havadan
Gəlir heyva qoxusu.
Bu payız "Göyərçin"i
Gör necədi, oxucu?

## SƏRÇƏLƏR

Sərçələr dən gəzirlər
Tökülüblər yollara.
Səhər-səhər sevinir
Səma baxıb onlara.

Çantasından qoğalı
Tez çıxarıb göstərir.
Bir sərçə "cik-cik" edir
Yəqin qoğal istəyir.

Səma deyir ki, quşlar
Gör necə dirçəldilər.
Nənəmin qoğalını
Çox bəyəndi sərçələr.





## FƏRİDƏ MÜƏLLİMƏ

Fəridə müəllimə
Heç bir kəsə bənzəmir.
Sinifdə uşaqlara
Acı-acı söz demir...

Ac olanı yedirdir,
Paltarını geydirir.
Tez-tez cizgi filmilə
O, bizi sevindirir.

Ötən ildən bu yana
Uşaqlar çox dəyişib.
Çoxu əlaçı olub
Bir-birilə yarışıb.

Böyük həvəs oyadır
Müəlliməm hər dərsə.
Biz onu çox sevirik
Eləyirik nə desə.

# DİŞLƏR GƏLİB EVİNƏ

Dünən dişi oynayıb
Yerə düşdü Gülgəzin.
Ağzında diş qalmadı
Nə gülməlidi qızım.

Daha kökü, almanı
O dişləyə bilmədi.
Utandı, əvvəlkitək
Çox danışıb-gülmədi.

Bir gün güzgüyə baxdı
O, sevinə-sevinə.
Dedi, ana, buna bax,
Dişlər gəlib evinə.





# BALACA GÜNƏŞ

Yuxudan duran kimi
Hamıya gülümsəyir:
- Ata, sabahın xeyir,
- Ana, sabahın xeyir!

Yeddi yaşlı Günəşdən
Qəm qorxur, qüssə qaçır.
O, balaca günəştək
Ətrafına nur saçır.

## KİM DƏRSİNİ BİLMİRSƏ

Bacını tərifləsən
Qardaş küsür o anda.
Qardaşı tərifləsən
Bacı inciyir onda.

"Mən sizi çox sevirəm", -
Axırda ana deyir.
Kim dərsini bilmirsə
Ana ondan inciyir.





## AY DA GƏLİR DALIMCA

Mavi yorğan içində
Başın qoyub balınca.
Mən getdikcə görürəm
Ay da gəlir dalımca.

Duşünürdun Ay nədən
Arıq olur çöp kimi.
Bir də gördüm kökəlib
Dönüb olub top kimi.

## MÖTƏRİZƏ

Mötərizə yazmağı
Öyrənib bizim Ayna.
Mötərizə içində
Qaldı armud və alma.

Anasının üzünü
Alıb kiçik ovçuna.
Mötərizəyə aldım
Deyir, səni, ay ana!





## KÖRPƏ SƏSİ

Qonşudan gəlir
Bir körpə səsi.
O şirin bala
Gülün qönçəsi.

Hamı sevinir
O şirin səsə.
Həmin sevincdən
Pay düşür bizə.

Pəncərəmizə
Sanki quş qonub.
Balaca Könül
Dinləyir onu.

Tezdən oyanır
Körpə səsiylə.
Danışır-gülür
Min həvəs ilə.

## QUMRU

Ağappaq qar içində
Atılıb-düşdü Qumru.
Qartopular düzəltdi
Balaca yumru-yumru.

Sonra qardaşı ilə
Qardan adam düzəltdi.
Buz kimi əllərini
Anasından gizlətdi.





## SƏNƏMİN SEVİNCİ

“Mağazaya gedirəm,
Siyahı tutmuşam mən”.
Alacağı nə varsa
Şəklini çəkdi Sənəm.

İstədi ki, satıcı
Bu şəkillərə baxsın.
Şəkilləri görüncə
Ona "Afərin", - desin.

“Nə gözəl şəkillərdi”, -
Satıcı oğlan dedi.
Aldığı şirnidən çox
Sənəm buna sevindi.

## QAR ADAM

Şaxtalı qış olsa da
Dostlar çıxıb gəzməyə.
Gəl, qartopu oynayaq
Elcan deyir Həmzəyə.

Xırdaca toplar kimi
Qar da yağır durmadan.
Uşaqlar ağ dənizdə
Dönüb olur qar adam.





## AĞACLAR DON GEYİNDİ

Ağaclar cılpaq, arıq
Çöllər elə boz idi.
Qar yağdı obamıza
Ağaclar don geyindi.

## BALACA RƏSSAM

Gözündən heç nə qaçmır
Baxır evlərə, dağa.
Zəhra deyir, binalar
Bənzəyir oyuncağa.

Uzağı görmək üçün
Təpəciklərə çıxır.
Çiçək dərir çəməndən
Qoyun-quzuya baxır.

Sonra gəlib ev çəkir.
Başı buluda dəyir.
"Buludun qonşusudur
Bizim evimiz", - deyir.





## HƏMZƏ

Avtobusun içində
Şirin-şirin həvəslə.
Üç yaşı yoxdu hələ
Himni oxuyur Həmzə.

## GÜNƏŞ NƏ AĞILLIDI

Günel gedir məktəbə
Günəş üzünə gülür.
Deyir: "Yoxsa Günəş də
Ana, məktəbə gəlir.

Günəş nə ağıllıdı
Göydə ocaq qalayır.
Uzadıb əllərini
O məni qucaqlayır".





## AĞILLI RÖYA

Çaya "Ç" hərfi deyir,
"S" hərfi deyir suya.
Hərfləri öyrənir
Bizim ağıllı Röya.

Xörəyə "X" söyləyir,
"A" deyir o, almaya.
Anası deyir təki,
Qiymətin "İ" olmaya.

## YELLƏNCƏK

Bilirəm, yelləncəyi
Çox sevirsən, ay Nigar.
Nənəmgildə mənim də
Qəşəng yelləncəyim var.

Gedən kimi hoppanıb
Otururam içində.
Quştək göyə qalxıram
Uçuram var gücümlə.

Yelləncək arzu kimi
Qəlbimə qanad taxır.
O məni yerdən alıb
Dağın başına çıxır.





## BƏS NİYƏ YAĞMAYIR QAR?

Hava yaman soyuqdu
Deyirlər ki, qış gəlib.
Bəs niyə yağmayır qar
Gözümüz göydə qalıb.

Qışın tən ortasında
Bu yağan yağışa bax.
Biz evdə darıxırıq
A qar, nə olar, tez, yağ!

Ağappaq ulduz kimi
Qar yağsın topa-topa.
Qartopu oynayaq biz
Sevinsin bütün oba...

## MƏN ƏSGƏR OLACAĞAM

Mən həkim olacağam
Sağlam olsun uşaqlar.
Mən də müəllim olum
Qoy, gur yansın işıqlar!

Mən aşpaz olacağam
Ac qarına iş olmaz.
Mən dərzi olacağam
Donsuz, köynəksiz olmaz.

Mən alim olacağam.
Yeniliklər edəcəm.
Mən səyahətçi olub
Uzaqlara gedəcəm.

Mən astronavt olub
Göy üzünə uçacam..
Mən də bəstəkar olub
Sənə nəğmə qoşacam.





Mən şair olacağam
Sözlərim olsun ordu.
Mən əsgər olacağam
Qoruyacam bu Yurdu.

Mən poliqlot olacam
Səsim hər yana çatsın.
Mən rəssam olacağam
"Odlar yurdu" adlanan
Azərbaycan rəsminə
Bütün dünya mat qalsın!

# MƏNİM ANAM

Yatar hamıdan sonra
Hamıdan tez oyanar.
Bütün günü o mənim
Qulluğumda dayanar.

Xörəyimi bişirər,
Saçlarımı darayar.
Qardaşımla o məni
Məktəbə hazırlayar.

Səhər tezdən məktəbə
Bizi aparan odur.
Sonra evə gətirən
Bizdən nigaran odur.

Deyirəm, qoy, anacan,
Kömək edim mən sənə.
Anam gülümsəyərək
Sevinir, baxıb mənə.





# ULDUZLAR

Ulduzlar naxış-naxış
Səpələnib səmaya.
Nə günəşə bənzəyir
Onlar nə də ki, aya.

Ulduzlar parıldayır
İşıldaböcək kimi.
Ulduzlar gülümsəyir
Şeh düşən çiçək kimi.

## BULUDLAR

Buludlar, a buludlar
Ağ, boz, qara buludlar.
Gah şir olur, gah dovşan
Sıra-sıra buludlar.

Hərdən sakit süzürlər,
Hərdən ağız büzürlər,
Göyüzündə gəzirlər
Burdan ora buludlar.

Yağış tökər səpsərin,
Üzü gülər hər yerin,
İçi böyük və dərin
Xaral-xaral buludlar.





## "QARANQUŞ"U OXUDUM

Bu yay heç darıxmadım
"Qaranquş"u oxudum.
Onunla ürəyimdə
Neçə arzu toxudum.

Gah baxıb rəssam oldum,
Gah da baxıb toxucu.
Sonra yazıçı oldum
Mən balaca oxucu.

Dostum, bəs sən kim oldun
Oxuyub "Qaranquş"u?!
Tanıdınmı quşları,
Torağayı, bayquşu?

Səyahət elədinmi
O uzaq ölkələrə.
Nağıllar oxudunmu
Çəkilib kölgələrə?

"Qaranquş"da şəklini
Sevindinmi görüncə.
İndi özün cavab ver
Ən çox kimdi oxuyan
Hansımızdı birinci?





**SÜBHANƏ**

Sübhanə tezdən durur,
Yatmaq istəmir bu qız.
Başını oyunlarla
Qatmaq istəmir bu qız.

Məktəbə gedir artıq
Dərslərini oxuyur.
Balaca barmaqlarla
İsti şərf də toxuyur.

Nə tez böyüdü qızım,
Anası çox sevinir.
Daha bəzi işlərdə
Sübhanəyə güvənir.

## KİTAB OXU

Kitab aldım əlimə
Oxuduqca doymadım.
Nağılın sonunadək
Onu yerə qoymadım...

Sən də al, kitab oxu,
Dostum, sevinəcəksən.
Oxuyub sonra mənə
"Çox sağ ol", - deyəcəksən.





## TELLİ

Telli, Telli, a Telli,
Telləri burma Telli.
Apaladır gözlərin
Qapqaradır tellərin
Dişlərin ağappaqdır,
Gülüşlərin şipşirin.

Gəl, səninlə oynayaq,
Oyundan heç doymayaq
Telli, Telli, a Telli
Telləri burma Telli...

## ƏZİZ OLUR ANALAR

Bir azca halsız olsam
Rəngi solur anamın.
Mənim üzüm güləndə
Üzü gülür anamın.

Elə bil ki, bizimlə
Nəfəs alır analar.
Ona görə həmişə
Əziz olur analar.





## GÜLÜSTAN

Gülüstanım, gül balam,
Mənim şirindil balam,
Gül açsın arzuların
Çoxlu sevin, gül, balam.

Yolun işıqlı olsun,
Bəxtin naxışlı olsun,
Xeyir işlər görəsən
Üzün alqışlı olsun.

## ELNARƏ

Çaylar aşır, su daşır,
Şəlalə axır şır-şır
Necə gözəl danışır
Mənim Elnarə qızım.

Bal deyirəm dilinə,
Qarabağın gülünə,
Qurban olum elimə
Mənim Elnarə qızım.

Atam, anam, gül bacım,
Qalmadı ağrı-acım,
Bircə balam baş tacım
Mənim Elnarə qızım.





## AYAN

Şirin balam, ay Ayan,
Nə çox yatdın, dur, oyan.
Gün düşür pəncərədən
İşığa, nura boyan.

Dostların Arzu, Aytək
Gələcək bizə tək-tək,
Yuxudan gözünü çək
Oyan, həyanım, oyan...

## QIRMIZI ULDUZ

Meyvə şirəsi içdi
Amma doymadı Süsən.
Dedi: "Ana, nə olar,
Bu şirəni dondursan?"

Ana buz qablarına
Tökdü qırmızı şirə.
Qoydu buz dolabına
Süsən sevinsin, deyə.

Vaxt ötüşdü, ay aman,
Şirə donub oldu buz.
Hər damlası balaca
Qıpqırmızı bir ulduz!





## ANAM VƏ KİTAB

Nə vaxt görsəm anamı
Əlində bir kitab var.
Kitab, dəftər, qələmsiz
Dünya ona dar olar.

Ev işləri olmasa
Anam bir an dayanmaz.
Kitabla yuxulayar,
Kitabsız da oyanmaz.

Kitablar elə durub
Əsgəridir anamın.
Kim kitab oxumursa
Düşmənidir anamın.

## BALACA HƏKİM

Xəstələnmişdi anam
Sığal çəkdim telinə.
Qucaqladım mən onu
Şal bağladım belinə.

Ayrılmadım yanından.
Çoxlu xoş söz söylədim.
Əllərini oxşadım,
Üzünü əzizlədim.

Limonlu su gətirdim,
Şirin nağıl danışdım.
Oyuncaqlarla onun
Başını qarışdırdım.

Anam lap tez sağaldı
Dedi sağ ol, gül qızım.
Sən mənim həkimimsən
Daha qalmadı arzum.





## DƏNİZİ ÇOX SEVİRƏM

Yay boyunca atamla
Mən dənizə gedirəm.
Qumdan qala qururam,
Dalğayla rəqs edirəm.

Qağayılar mənimlə
Dost olurlar dənizdə.
Heç uzağa getmirlər
Oynayırlar bizimlə.

Suları qırçın-qırçın,
Bir nağıldı dalğalar.
Dəniz nəğməsi deyir
Bizə şən qağayılar.

## NƏNƏMİN AD GÜNÜDÜ

Nənəmin ad günüdü
Tez tort bişir, ay ana!
Üstünə yaz "Can nənə",
Çiyələk düz yanına.

Nənəm çox sevinəcək,
Tort verəcək mənə də.
Nənəmi çox sevirəm,
Ana, elə səni də.





## ƏDALƏT BALAM

Quşlarla nəğmə dedi,
Çiçəklərlə dost oldu.
Mənim Ədalət balam
May ayında doğuldu.

Bacısı çox sevindi
Tutdu toppuş əlindən.
Bütün günü laylalar
Düşmədi heç dilindən.

"Tez ol, böyü, qardaşım",-
Nuray səslədi onu. -
"Oynamağa kimsə yox
Gərək biləsən bunu".

## DƏNİZƏ APAR MƏNİ

Dəniz necə böyükdü,
Dəniz necə gözəldi!
Rəngli balıqqulağı
Sanki bağda xəzəldi.

Toplayıram onları
Aparacam nənəmə.
Nənəm çox sevinəcək
Gəmi alacaq mənə.

Dənizlə oynayıram
Ləpələr qovur məni.
Deyirəm, ata, hər gün
Dənizə apar məni!





## YEGANƏ MÜƏLLİMƏ

Müəllimənin adı
Çox gözəldi - Yeganə!
O mənim ürəyimdə
Bir dənədir, bir dənə.

Mən yaxşı oxuyuram
Müəlliməm sevinir.
Gündəliyə “5” yazır,
Mənə “Afərin”, - deyir.

Gül çəkirəm mən ona,
Düzəldirəm ev, gəmi...
"Yeganə müəllimə,
Çox sevirəm mən səni!"

## ACIQLI XƏYAL

Xətkeşin işi
Tamam dəyişdi.
Oyuncaq oldu
Sındı, büzüşdü.

Ağacı vurdu
Meyvəni saldı.
Xəyal baxmadı
O meyvə kaldı.

Vurdu xətkeşlə
Bacısını o.
Belə çıxardı
Acısını o.

Nağıl danışdı
Xəyala nənə.
Səhv etdiyni
Anladı nəvə.





## İLK KİTABIM

Görün mənim nəyim var?
Bir buna bax, ay nənə!
Bu gün kitabxanadan
Kitab veriblər mənə.

Kitabı alan andan
Çantama qoymamışam.
Avtobusda bir az da
Nağıldan oxumuşam.

Kitabdakı maraqlı
Şəkillərə baxıram.
Dərslərimi bitirib
Mən nağıl oxuyuram.

## TƏZƏ İL

Təzə il gəlir, dostlar
Gələcək Şaxta baba.
Bizimlə oynayacaq,
Güləcək Şaxta baba.

Bizim sevincimizə
Qoşulacaq Qar qız da.
Bəzəkli şam ağacı,
Başındakı ulduz da.

Hərə öz arzusunu
Şaxta babaya deyib.
Qartopu oynayacaq
İsti əlcəklər geyib.

Təzə ildə təptəzə
Arzular doğulacaq.
Təzə ildə uşaqlar
Daha xoşbəxt olacaq.





Çünki bütün dünyaya
Sülh istəyəcəm mən də.
Uşaqlar ağlamasın
Dünyanın heç yerində.

## ÇİNGİZİN ÇƏKİCİ

Bu gün çəkiclə
Çalışdı Çingiz.
Çəkicə yaman
Alışdı Çingiz.

Dedi: "Göstərim
Çəkici sizə?
Sehrlidir o
Görünmür gözə".

Çingiz çəkici
Ortadan böldü.
Çəkic bir idi
Beş ədəd oldu.





## SƏMA VƏ RƏŞİD

Səma məktəbə gedir,
Rəşid kiçikdi hələ.
Biri dərs hazırlayır,
Biri oynayır elə.

Səma bir də baxır ki,
Nə var yerə tökülüb.
Rəsm dəftəri itib,
Karandaşlar yox olub.

"Bu Rəşidin işidir" -
Bacısı tez anlayır.
Qardaşına hirslənir,
Onu çoxlu danlayır.

Səma sonra görür ki,
Bu çıxış yolu deyil.
Balaca müəllimə
Qardaşına dərs deyir.

# MƏNİM QİYASLI KƏNDİM
## (3-cü hissə)





## AZƏRBAYCAN BAYRAĞI

Üstündə şəhid qanı
Savaşlarda doğuldun.
Ay-ulduzlu bayrağım
Mən səninlə var oldum.

Min bir bəladan keçib
Sonda ucaldın yenə.
Cümhuriyyət sancağım,
Canım fədadır sənə!

Bayraqların içində
Ucalıqda bircəsən.
Sən sanki ulduzlardan
Yurduma nur çilərsən.

Səni köksümə sancıb
Şuşaya gedəcəyəm.
Bu çəkilməz həsrəti
Daha bitirəcəyəm!..

Səni görcək Qarabağ
Nuruna bürünəcək.
Xocalıda o şəhid
Körpələr diriləcək...

Sən ucalan səmada
Buludlar dağılacaq.
Sənin eşqindən neçə
Oğullar doğulacaq!

...Mənim ilham çələngim,
Ədalətim, haqq yolum.
Üçrəngli göyqurşağım -
Göyüm, alım, yaşılım.

Şəhidimin kəfəni,
İgidimin canısan!
Nə qədər ki, biz varıq
Azərbaycan bayrağı,
Sən müqəddəs andımsan!
Sən müqəddəs andımsan!





**XOCALI**

Ağappaq qar üstünə
Qanı çilənmiş balam.
"Qar adam"ın yanında
Qana bələnmiş balam...

Anası saçlarından
Göydən asılı qalmış.
Atası "Vətən!" deyə,
Düz ağzından atılmış.

Babası buz heykəli
Torpaq üstə yıxılmış.
Nənəsi havalanıb
Dili-ağzı tutulmuş.

Bacı və qardaşları
Əzabla öldürülmüş.
Utansın belə dünya
Zülmü artıq ağ olmuş!

Bir oba, bir məzarlıq
Bütün nəsil qırılmış.
"Unutqanıq" deməkdən
Daha dilim yorulmuş.

Biz unutqan olsaq da,
Tarix bunu unutmaz.
İnsanlara zülm edən
Dünyamıza dost olmaz!





## QARĞIŞ

...Novruz tonqalından atlana bilmədi
Xocalı uşaqları,
Qaldı yağı əlində...
Ay zalım düşmən,
Səni odda yanasan, suda batasan
Çörəyimiz tutsun səni –
boğulasan!
Daşın daş üstə qalmasın heç!
Bu əziz, kövrək günümdə
Görüm
Qarğışım tutsun səni...

## BAYATILAR

Xocalıyam, dağam mən,
Viran olmuş bağam mən.
Gərək düşmən üstünə
İldırımtək çaxam mən!

Xocalıyam, sazağam,
Həm yaxın, həm uzağam,
Gedib düşmən qəbrini
Əllərimlə qazaram.

Xocalıyam, haqq hanı?
Ədalət, insaf hanı?!
Bu boyda müsibəti
Gərək tanısın hamı!





## NOVRUZ BAYRAMI

Novruz bayramı –
Uşaqlıq illəri,
Paxlava, şəkərbura naxışları kimi
Sevimli günlər, şirin gülüşlər...

Novruz bayramı –
Yamyaşıl bir zəmi, başımızda çələng,
Ağ libaslı ağaclar bir mələk...

Novruz bayramı –
Ağdamın Qiyaslı kəndi,
Atamın zümzüməsi,
Anamın qonşuya pay göndərməsi,
Böyük bir tonqal
Ağırlığım-uğurluğum harda qaldı?

Novruz bayramı –
Balaca qardaşımın papaq atması,
Yumurta döyüşməsi,
Xocalı uşaqlarının gülüşməsi...

Novruz bayramı –
...Şuşanın dağları
Dumansız-çənsiz
Qızları qırmızı qoftalı,
Yaşıl şalvarlı –
Cıdır düzündə, at belində...

...Xanın səsi havalandı;
"Qarabağın şikəstəsi!"
Dünyaya səs saldı,
Açın qulaqlarınızı!..

...Novruz bayramı –
Kosalı, Kecəlli,
A Novruz çələngli,
Göy bənövşəli...

...Ah, bir də uşaq olarammı,
Tonqaldan atlanarammı?!

Novruz bayramı –
Məni bu həyatla barışdırarmı?





## MƏNİM QİYASLI KƏNDİM

Mənim Qiyaslı kəndim,
De, evimiz necədi?
Kim çıxır ağaclara
Həyətimiz necədi?

Xallı, qara, ağ gilas...
Ağacların dururmu?
Söyüdlərin qoynunda
Quşlar yuva qururmu?

Həyətinin xalısı
Bənövşəli, nanəli.
Qoynu güldən naxışlı
Zəncirotu, laləli.

Uzanıb məxmər gülü
Pəncərədən baxırmı?
Bağçamızın içindən
Sular şır-şır axırmı?

Qoynu gülüstan kəndim,
Sənin ətrin başqadı.
Sənin göyün, buludun,
Varın-yoxun başqadı.

Güllə dəydi köksünə
Ağaclar yaralandı.
Yerdə uşaqlar uçdu,
Göydə quşlar dayandı...

Görüşdük hospitalda
Oğlu çox yaralıydı.
Qonşumuz Gözəl xala
Görən indi hardadı?

Badam xalanın qızı
Xocalıya köçmüşdü.
Şəhid oldu dünyası
Dərdi dillərə düşdü.





Biz də çöllərə düşüb
Yollar yorğunu olduq.
Əvvəl çadır, vaqonda,
Sonra yataqxanada
Üzünə həsrət qaldıq.

...Gün gələcək bitəcək
Bu həsrət, bu qüssə-qəm.
Darıxma, gözəl kəndim,
Hələ ölməmişəm mən!

## GÜNƏBAXAN

Bir həyətin yanından
Keçirdim, bir də baxdım
Bir nazlı günəbaxan
Hasarın üstə çıxdı...

Günəbaxan elə bil,
Yaddaşıma daş atdı.
Uşaqlığımı mənə
O yenidən yaşatdı.

...Bizim həyətimizdə
Vardı günəbaxanlar.
Onlarla mən dost idim
Heç yadımdan çıxarlar?

Həyətimizi birdən
Güllə yağışı aldı.
Bütün güllərin rəngi
Həyəcandan saraldı.





İşıq saçan gözləri
Sanki yaşla dolmuşdu.
Güllə günəbaxanın
Saçlarını yolmuşdu...

Ağaclar, güllər, otlar
Yaralandılar o gün.
Sevimli dostlarım da
Şəhid oldular o gün...

Hərdən çox düşünürəm
Fikir, qəm məni yorur.
Uşaqların, güllərin
Qisası hələ durur...

Ay, nazlı günəbaxan,
Nə yaxşı ki, sən varsan.
Sən hər yerdə, həmişə
Xatirə yoldaşımsan.

## SON ZƏNG

Bu gün son zəng çalınır
Həyəcanlıyam yaman.
Sevinclə qüssə məni
Bağrına basır bu an.

Necə balaca idim
Müəllimim deyirdi.
Amma mən dərslərimi
Çox yaxşı söyləyirdim...

Yanımdakı hörüklü
Qızdan xoşum gəlirdi.
O da mənə baxanda
Şirin-şirin gülürdü.

İndi gənc bir qız olmuş
Mən də cavan bir oğlan.
Xalam "Maşallah!", - deyir,
Müəllimim "Nər oğlan!"





Fəqət qəlbimdə nisgil
Laçınım yad əlində.
Necə nəğmə söyləyim
Bu yaralı könlümdə?

Məktəbi bitirmişəm
Nigaranam Vətəndən
Daha böyümüşəm mən
Bir əsgərəm bu gündən!

## GÜLLƏR GÜLLƏYƏ TUTULAN GÜN

"Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü..."
Hüseyn Cavid

...O boyda evimiz necə oldu?
İçindən şırıl-şırıl sular axan
o böyük bağ-bağçamız...
Tünd palıdı rəngdə darvazamız.
Yanında iri bir dağdağan ağacı vardı...
...Bir gün müharibə başladı.
Həyatimizdə ağaclar yaralandı,
güllər gülləyə tutuldu,
kəndimizdə hər gün
ölüm xəbərləri dolaşdı kabus kimi...
Mərmilər yağış kimi yağdı,
günahsız adamlar əlsiz-ayaqsız qaldı,
evlər dağıldı...
amma heç kəs
çıxıb getmək istəmirdi...





Biz də ordaydıq...
Atam düşmənin atdığı
mərmini gətirmişdi evə -
uşağına oyuncaq gətirən kmi...
...Qonşuda on yaşlı oğlan uşağı
qumbaranı oyuncaq sanmışdı və
tikə-tikə olmuşdu...
Mən də... bir dəfə çaşıb əlimə götürmüşdüm
qumbaranı, necə qorxmuşdum, ilahi!
Heç vaxt unutmaram....
Atam deyirdi: "Qorxmayın, bilirəm,
nə vaxt sizi kənddən çıxarmaq lazımdı..."

...Bir gün kənd də, şəhər də
gülləyə tutuldu,
hamı təşviş içində, atam evdə yoxdu...
Birdən darvazamız açıldı və atam
qan içində üstümüzə gəldi....
Güllələr yaddan çıxdı, səslər eşidilməz oldu...
Atamın yarasından qan sel kimi axdı-axdı...
neyləsək dayanmadı, durmadı...
həkim yox, maşın yox...

Bacım Səmayə körpəsini
qucağına aldı və
atamın başına dolandı...
...Sonra vertolyotla atamı Gəncəyə apardılar.
Amma geri dönüb bizi heç hara apara bilmədi
-
Şəhid oldu...

Biz yenə ordaydıq...
Evimizdə, anamızın yanında.
Üç qardaş döyüşdə,
üç uşaq evdə...
Bir gün düz yanımıza düşdü mərmi,
səsdən evimiz çatladı,
bağrımız partladı...
Qonşumuz Şahmalı Kürdoğlu,
o səsi nəğməli çay kimi dupduru,
avazı şirin xanəndə...
Balaca oğluna, adaşına nar dəribmiş...
Nar rəngində qana boyamışdı qəlpələr
hər ikisini....
Ana dəliyə dönmüşdü...





Qucağında nar kimi paralanmış balası...
Hələ nə yaşım vardı, sarsılmışdım....

...O gün başqa kənddə gecələdik...

Səhər yenə ordaydıq...
Darvazanı açanda anam diz çökdü,
torpağı öpdü...
Biz gilas ağacına dırmaşdıq...
bacım, qardaşım, mən...
gilas yenicə yetişirdi...
...Kənd səssiz. İtlər ulaşırdı,
işıqlar tez-tez sönürdü...
Az adam qalmışdı....

Biz yenə ordaydıq...
Bir gün düşmən tankı, gülləsi ilə
birgə gəldi..
Az qala əsir düşəcəkdik, az qala...
Sonra qapılarda qaldıq.
Daha sonra
dəmir vaqona sığındıq

minnətə qalmayaq deyə...
Bir neçə ildən sonra
Dərddən, ehtiyacdan, soyuqdan...
Anam da şəhid oldu...
Biz böyük bacımın yanına gəldik,
Bakıya, yataqxanaya...
Balaca qardaşım əlil olmuşdu müharibədə
Bacım hələ orta məktəbi bitirməmişdi,..
Mən ən böyük arzumu - oxumağı
unutmuşdum....
Sonra gəldim özümə...
Tikanların üstü ilə addım-addım
həyatla çarpışdığımdan,
necə ali təhsil aldığımdan,
danışmayım qoy...

...Görəsən, necə oldu
ikinci mərtəbəsindən qırmızı məxmər
gülləri şəlalə kimi
budaq-budaq tökülən o böyük evimiz?..
O qırmızı məxmər güllərin ətri,
o gözəllik başqaydı...





unudulmazdı...
Mən yenə... yenə də orada olmaq istərdim...
evimizdə, doğma ocağımızda, Qarabağda...

## AĞLAMA, QUMRU XALA

*Şəhid anasına*

Bir də Sizə gəlimmi?
Ağlama, Qumru xala.
De, dərdindən ölümmü?
Ağlama, Qumru xala.

Hara gedim gözündən?
Əksin qalıb üzümdə
Güc tapmıram özümdə
Ağlama, Qumru xala.

Səni belə bilməzdi,
Boş gülləyə gəlməzdi,
Şəhidlər ki, ölməzdi
Ağlama, Qumru xala.





## YAZ GƏLDİ, YAZIN GƏLMƏDİ

*Yataqxana binasından boylanan anaya*

Nə həsrətdi gözlərində
Baharın bu gülən çağı?
Yoxsa yadına salmısan
Yurdunda sönmüş ocağı?

Mənə də söylə dərdini,
Qurban olum, gəl yaxına.
Ana, elə qəmli baxıb
Ürəyimə dərd toxuma...

Yol-izini göy ot alıb
Bura üstü buz küçədi.
Mən belə dərd çəkən yerdə
Gör sənin halın necədi?

Ahın dağlara, daşlara
Yenə nə yaman dolmusan...
Yaz gəldi, yazın gəlmədi
Göydən asılı qalmısan...

## CAN, TÜRKİYƏM, TÜRKİYƏM!

*Darbe gününə yazılıb*

Çıxdıq savaş düzünə,
Düşmənin düz üzünə,
Cavab verdik yüzünə
Can, Türkiyəm, Türkiyəm!

Türk əsgəri yenilməz,
O gün yaddan silinməz,
Vətənimiz bölünməz!
Can, Türkiyəm, Türkiyəm!

Türkü dinləyərik biz,
Yaralarımız köz-köz,
Hey söylərik həpimiz
Can, Türkiyəm, Türkiyəm!

Bayraq yürüşünə bax,
Düşmənin qəlbini yax!
Günəş kimi ucal, qalx!
Can, Türkiyəm, Türkiyəm!





Mən azəri türküyəm,
Qarabağın görküyəm,
Xocalıyam, Kərkükəm...
Can, Türkiyəm, Türkiyəm!

## HİMNİMİZİN SƏSİYLƏ

Himnimizin səsiylə
Nədən dolur gözlərim?
Qəlbim elə böyüyür
Ordu olur sözlərim...

Himnimizin səsiylə
Dalğalanır bayrağım.
Könlümə haray salır,
Çağırır Qarabağım.

Himnimizin səsində
Gör bir nələr yaşadım.
Qələbə bayrağını
Mən çiynimdə daşıdım.

Bayrağıma "can" deyir
Göytürkümün nəfəsi.
Himnimizin səsiylə
Ucalır haqqın səsi!





## UNUDULMAZ MÜƏLLİM

Bu gün rast gəldim ona
Saçlarına düşüb dən.
Mənim ilk müəllimim -
Tanıdım onu gendən.

Heç unutmaq olarmı
O sinif otağını?
O balaca, titrəyən
Əlimdən tutmağını?

Hər barmağı bir rəqəm
Toplayardı, çıxardı.
O sehrli əlləri
Necə yaddan çıxarım?

Bir fəndi öyrətməmiş
Əl çəkməzdi, durmazdı.
Hərdən çox yorulsa da,
Qəlbimizi qırmazdı.

Biz dərsi danışanda
Üzündə gül açardı.
Sevincindən o anda
Qanad açıb uçardı...

Uşaqlar Sizi yaman
İstərdilər, müəllim.
"Biz Sizi çox sevirik" -
Deyərdilər, müəllim!

...Bu gün onu görüncə
Elə bil, uşaqlaşdım.
Bircə anın içində
Tez gül köşkünə qaçdım.

Məni görcək bəs nədən
Doldu onun gözləri?
Damlalar incə-incə
Oxşadı nərgizləri.





Qəlbindəki işıq, nur
Heç vaxt solmaz, müəllim.
"Ana", "Vətən" sözütək
Unudulmaz MÜƏLLİM!

## SEGAH OXUYAN KÜLƏK

Ay külək, sən də mənimtək
Bərk hirslisən, deyəsən.
Yerə-göyə sığışmırsan
Ağacları döyürsən.

Əsəbimi sərtliyinlə
Ora-bura çırpırsan.
Görürsən ki, dincəlmədim
Bir segah qaldırırsan.

Nə yaxşı ki, varsan, külək,
Ürəyimdə əsirsən.
Mənimlə nəğmə deyirsən,
Mənimlə bir küsürsən.





## MÜNDƏRİCAT

Balalarımıza Qarabağ nəğmələri
*(Elçin İsgəndərzadə)*........................ 3
SƏN MƏNİM VƏTƏNİMSƏN 5
Mənim doğma Vətənim........................ 6
Ana dilim........................ 7
Cəngi havasındayam........................ 8
Azərbaycan əsgəri........................ 9
Vətən........................ 10
Bayrağım........................ 11
Şuşa........................ 12
Ağaclar da kövrəlir........................ 13
Sən mənim Vətənimsən........................ 14
Novruz........................ 15
Xocalı........................ 17
Ağdam........................ 18
Mübariz........................ 20
Təbriz........................ 21
Çingiz........................ 22
Türk bayrağı........................ 23
Türk əsgəri........................ 24

Qiyaslı.................................................... 25
Qarabağ.................................................... 26
Əsgərə məktub.................................................... 27
Bakı.................................................... 28
Böyüklər bizə baxsın.................................................... 29
Bizim xalçamız.................................................... 30
Qız qalası.................................................... 32
Şəki.................................................... 33
Gəncə.................................................... 35
Bərdə.................................................... 36
Nənəm sevmir şəhəri.................................................... 37
**AYAQQABI ADASI** 38
Hörümçək adam.................................................... 39
Nuray.................................................... 40
Şam və nağıl.................................................... 41
Balerina karandaş.................................................... 42
Təndir çörəyi.................................................... 43
Yağan qar olmaz hədər.................................................... 44
Ayaqqabı adası.................................................... 45
Çiçəyin çətiri.................................................... 46
Ümidin bir yaşı var.................................................... 47
Göyqurşağı.................................................... 48





Mənim adım İradə.................................................... 49
Məktub.................................................... 50
Məktəb mənsiz darıxır.................................................... 51
Nəğmə söyləyir külək.................................................... 52
"Göyərçin" jurnalında ilk dəfə yazılarımı görəndə.................................................... 53
Sərçələr.................................................... 54
Fəridə müəllimə.................................................... 55
Dişlər gəlib evinə.................................................... 56
Balaca günəş.................................................... 57
Kim dərsini bilmirsə.................................................... 58
Ay da gəlir dalımca.................................................... 59
Mötərizə.................................................... 60
Körpə səsi.................................................... 61
Qumru.................................................... 62
Sənəmin sevinci.................................................... 63
Qar adam.................................................... 64
Ağaclar don geyindi.................................................... 65
Balaca rəssam.................................................... 66
Həmzə.................................................... 67
Günəş nə ağıllıdı.................................................... 68
Ağıllı röya.................................................... 69

Yelləncək........................................ 70
Bəs niyə yağmayır qar?........................ 71
Mən əsgər olacağam........................ 72
Mənim anam........................................ 74
Ulduzlar........................................ 75
Buludlar........................................ 76
"Qaranquş"u oxudum........................ 77
Sübhanə........................................ 79
Kitab oxu........................................ 80
Telli........................................ 81
Əziz olur analar........................................ 82
Gülüstan........................................ 83
Elnarə........................................ 84
Ayan........................................ 85
Qırmızı ulduz........................................ 86
Anam və kitab........................................ 87
Balaca həkim........................................ 88
Dənizi çox sevirəm........................................ 89
Nənəmin ad günüdü........................................ 90
Ədalət balam........................................ 91
Dənizə apar məni........................................ 92
Yeganə müəllimə........................................ 93





Acıqlı xəyal........................................ 94
İlk kitabım........................................ 95
Təzə il........................................ 96
Çingizin çəkici........................................ 98
Səma və Rəşid........................................ 99
**MƏNİM QİYASLI KƏNDİM** 100
Azərbaycan bayrağı........................................ 101
Xocalı........................................ 103
Qarğış........................................ 105
Bayatılar........................................ 106
Novruz bayramı........................................ 107
Mənim Qiyaslı kəndim........................................ 109
Günəbaxan........................................ 112
Son zəng........................................ 114
Güllər gülləyə tutulan gün........................ 116
Ağlama, qumru xala........................................ 122
Yaz gəldi, yazın gəlmədi........................ 123
Can, Türkiyəm, Türkiyəm!........................ 124
Himnimizin səsiylə........................................ 126
Unudulmaz müəllim........................................ 127
Segah oxuyan külək........................................ 130

**Mina RƏŞİD**

**Balaca günəş**

Çapa imzalanmış: 08.04.2019
Kağız formatı: 70x90 1/16
Həcmi: 8,5 ç.v.; Sifariş:739; Sayı: 500

«VEKTOR» BEYNƏLXALQ NƏŞRLƏR EVİ
Ünvan: AZ1018. Bakı şəh, Zığ yolu, 20 q
tel: (+99470) 3007000; (+99412) 4471404
faks: (+99412) 4796003
e-mail: isgenderzadeh@rambler.ru
www.vektor.az



*Mina RƏŞİD (Şıxova). 1972-ci il may ayının 4-də Ağdamın Qiyaslı kəndində doğulub. Doğma kəndi işğal edilib, atası şəhid olub. "Könlümün sarı simi", "Baxmaqla görmək ayrıdır" və "Böyüklər bizə baxsın" (uşaqlar üçün) adlı kitabları çap edilib.*

*2017-ci ildə AYB və "Ulduz" jurnalının birgə keçirdiyi "Ən yaxşı uşaq şeiri" müsabiqəsində 2-ci yerə layiq görülüb. 2018-ci ildə M.Arazın 85 illik yubileyi münasibətilə III "Məmməd Araz Poeziya günü" çərçivəsində keçirilən şeir (2-ci yer) və 2019-cu ildə "Mübariz İbrahimov - Vətənpərvərlik nümunəsi" movzusunda təşkil edilən yazı müsabiqəsində 3-cü yerin qalibi olub. AYB-nin üzvü, Prezident mükafatçısıdır.*

*Ali təhsillidi, iki övladı var.*

